# Zəfər tarixinin xronikası

## 5 oktyabr 2020-ci il



– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etdiyini bildirib. Xatırladaq ki, bir gün əvvəl–oktyabrın 4də isə Cəbrayıl şəhəri, eləcə də rayonun Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Dəjəl və Karxulu kəndləri düşməndən təmizlənib;

– Prezident İlham Əliyev "TRT Haber" telekanalına verdiyi müsahibədə Azərbaycana qarşı qara təbliğatın davamlı şəkildə aparıldığını, erməni lobbisinin daim hərəkətdə olduğunu vurğulayıb. Dövlətimizin başçısı daha sonra deyib: "Biz özümüzü müdafiə edirik, öz vətəndaşlarımızı müdafiə edirik, öz ərazi bütövlüyümüzü saxlamaq istəyirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə məxsub olan bizə qalmalıdır. Otuz ildir ki, ermənilər bizim qədim torpağımızı istismar edirlər. İnsanlara o torpaqlara qayıtmağa icazə vermirlər. Beynəlxalq vasitəçilər biganə qalır, məhəl qoymur. Belə olan halda Azərbaycan özü bunu edəcək".;

– Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib. Paylaşımda deyilir: "Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun!";

– Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın hərbi təxribatları ilə əlaqədar "Ukraina-24" telekanalına müsahibə verib;

– Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovla Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian arasında telefon danışığında Qarabağdakı vəziyyət müzakirə edilib;

– Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti Ermənistana aid mühüm sənədlər yayıb;

– Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib;

– Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvləri tərəfindən



Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərı boyu uzanan cəbhə xəttində həyata keçirdiyi artilleriya hücumlarını qəti şəkildə qınayan bəyanat yayılıb.

### Qardaş Türkiyə Azərbaycana mənəvi dəstəyini əsirgəmir

Sentyabrın 27-dən başlayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatlar və buna cavab olaraq şanlı Azərbaycan Ordusunun əks-hücumu nəticəsində qazanılan uğurlar qardaş Türkiyənin hər bölgəsində böyük təntənə ilə qeyd edilir.

Artıq bir neçə gündür ki, Türkiyənin hər bölgəsinin tarixi rəmzləri Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılır, dövlət idarələrinin və ali təhsil müəssisələrinin binalarının üzərində şanlı bayrağımız dalğalandırılır. Bir çox vilayətlərin ictimai nəqliyyatının elektron tablolarında iki qardaş ölkənin bayraqları ilə yanaşı, "Bir millət, iki dövlət!" şüarı da əks olunur, küçələrdə xüsusi dəstək şüarları asılır. Türkiyənin bir çox məscidlərində şəhid olmuş qəhrəman oğullarımızın ruhuna dualar oxunur, ehsanlar paylanılır. Qardaş ölkənin müxtəlif bölgələrində və sosial media hesablarında dəstək aksiyaları keçirilir. Türkiyənin məşhur sənətçiləri də qardaş Azərbaycanla həmrəy olduqlarını bütün dünyaya nümayiş etdirirlər.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu NATO-nun Baş katibi Yens Stoltenberq ilə Ankarada keçirdiyi birgə mətbuat konfransında deyib: "Azərbaycan öz qanuni haqqı uğrunda mübarizə aparır. Beynəlxalq ictimaiyyətin də haqlının yanında olması lazımdır. Biz bu məsələdə mövqeyimizi açıq şəkildə ifadə edirik. Daha əvvəl söylədiyim kimi, Azərbaycan indiyə qədər Türkiyədən bir dəstək istəməyib. Lakin lazım gələrsə, çəkinmədən dəstək verəcəyimizi hörmətli Prezidentimiz başda olmaqla hər birimiz söyləmişik".

Ermənistanın mülki Azərbaycan əhalisinə hücumlar etməsinin yeni olmadığını vurğulayan nazir Mövlud



Çavuşoğlu xatırladıb ki, Ermənistanın silahlı birləşmələri tərəfindən 1992-ci ildə Azərbaycanın Xocalı şəhərində uşaq və qadınlar da daxil olmaqla 613 nəfərdən çox dinc sakin qətlə yetirilib. Bu ilin iyulunda isə Ermənistan yenə mülki əhaliyə hücum edib. Bu dəfə də həm azərbaycanlı hərbçilər, həm də dinc əhali arasında ölənlər olub. İndi Ermənistan tərəfindən Bakı ətrafına və Gəncəyə raket atılır. Əslində, bu müharibə cinayətidir. Azərbaycan isə işğal altındakı torpaqlarını azad etmək üçün mübarizə aparır.

### Ermənistan müharibə cinayətlərini davam etdirir

Hazırda Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur. Azərbaycan Ordusu adekvat tədbirlər görür.

Oktyabrın 5-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tutulub.

Gəncə şəhərinin müxtəlif hissələrində, şəhər ərazisində yerləşən xəstəxananın, orta məktəbin, mebel fabrikinin yaxınlığına, bazara atılması nəticəsində 3 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, mülki infrastruktura külli miqdarda ziyan dəyib.

Düşmənin dinc sakinləri hədəfə alması, artilleriyadan atəşə tutması şəhər sakinlərini qorxutmur. Şəhərdə hamı gündəlik işləri ilə məşğul olur.

Azərbaycanın Baş prokuroru: Düşmən mülki şəxsləri hədəfə almaqla döyüş meydanındakı uğursuzluqlarına don geyindirmək istəyir

Azərbaycan Baş prokuroru Kamran Əliyev oktyabrın 5-də Baş Prokurorluqda Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, beynəlxalq təşkilatların, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün təşkil olunan brifinqdə məlumat verib.

Baş prokuror bildirib ki, toqquşmalar artıq yeni fazaya keçib. Ermənistanın kriminal hərbi-siyasi rejimi müharibə aparmağın bütün qaydalarını pozaraq çox təhlükəli addımlar atır. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistan ordusunun artilleriya atəşinə məruz qalıb. Mülki əhaliyə külli miqdarda ziyan dəyib. Düşmən bu təhlükəli addımı bu gün də davam etdirib. Ermənistanın və qondarma "rejim"in rəhbərliyinin göstərişi ilə Mingəçevir şəhəri də düşmənin hücumuna məruz qalıb. Azərbaycan Ordusunun peşəkarlığı sayəsində bu addımların qarşısı alınıb.

Abşeron və Xızı rayonlarının da Ermənistan ordusu tərəfindən raket zərbələrinə məruz qaldığını vurğulayan Baş prokuror deyib ki, qondarma "rejim"in rəhbəri Araik Arutunyan Azərbaycana qarşı bu addımları ilə fəxr edir, bu barədə sosial şəbəkə hesablarında paylaşım edir. Cinayətkar rejim müharibə qaydalarını pozur. Münaqişə zonasından kənarda dinc Azərbaycan əhalisinin yaşadığı şəhər və rayonlara hücumlar dayandırılmalıdır. Bu, bizim tələbimizdir. Bu hücumlar yolverilməzdir. Ancaq ağlını itirmiş şəxslər, ağlını itirmiş rəhbərlik belə göstəriş verə bilər. İndicə aldığımız məlumata görə, Ağcabədinin mərkəzi də ermənilər tərəfindən hücuma məruz qalıb. Prokurorluq əməkdaşları hadisə yerində lazımi işləri görürlər.

***

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanla bağlı yeni statistika açıqlayıb.

Açıqlamada deyilir: "Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 5 oktyabr saat 16:00-a olan məlumata görə, həlak olmuş şəxslərin sayı 25-ə, xəsarət alanların sayı isə 127-yə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 316 evə və 56 mülki obyektə ciddi ziyan dəyib".

### Azərbaycanın haqq mübarizəsi dünya mətbuatında

Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini və ətraf kəndləri düşməndən azad etməsi Türkiyənin Anadolu Agentliyi, TRT HABER, HABER TÜRK, TGRT, A HABER, BENGÜ TV telekanallarının, habelə "Akşam", "Təqvim" və s. nüfuzlu qəzetlərin saytlarında geniş işıqlandırılıb. Əvvəlcə Prezident İlham Əliyevin sosial şəbəkə paylaşımlarına istinad edən media orqanları sonrakı mərhələdə xəbəri dövlətimizin başçısının canlı yayımla Azərbaycan xalqına müraciəti əsasında yayıblar.

Rusiyanın aparıcı xəbər resursları "Azərbaycan Prezidenti Qarabağda vəziyyətin kəskinləşməsinin təqsirkarlarını açıqladı", "Azərbaycan Prezidenti: Onları iti qovan kimi qovuruq", "Azərbaycan Prezidenti Qarabağda atəşkəs üçün şərtlərini açıqladı" kimi başlıqlı materiallar dərc edib.

Böyük Britaniyanın "The London Post" informasiya agentliyi Ermənistan ordusu tərəfindən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mülki obyektlərinin, tarixi binalarının raket hücumuna məruz qaldığını vurğulayıb.

Yaponiyanın Osaka şəhərində "Aşahi" televiziyasının "Seigi no Mikata" proqramının canlı efirinin 30 dəqiqəsi Dağlıq Qarabağ münaqişəsinə həsr edilib. Verilişə dəvət alan Yaponiya–Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri Əlibəy Məmmədov və Keio Universitetinin professoru Hirose Yoko tərəfindən yaponiyalı tamaşaçılara Azərbaycan və Dağlıq Qarabağ həqiqətləri çatdırılıb.

Ukraynanın dövlət Ukrinform, UNİAN informasiya agentlikləri, "RBK-Ukrayna", "Qordon", "Segodnya.ua" və digər xəbər saytlarında Prezident İlham Əliyevin xalqa müraciətində sərt tənqidi fikirləri dərc edilib. Məqalələrdə dövlətimizin başçısına istinadla vurğulanıb ki, atəşkəsin elan edilməsi bir şərtlə, Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan ordusunun çıxarılmasında sonra baş tuta bilər.

Özbəkistanın "interpress.uz" portalı Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsi ilə əlaqədar özbək dilində məqalələr dərc edib.

Böyük Britaniyanın "The London Post" informasiya agentliyi Ermənistan ordusu tərəfindən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin raketlər atəşinə tutulması barədə ətraflı məlumat yayıb.

"The Washington Post" nəşri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə zonasından kənarda yerləşən şəhərlərinə raket zərbələri haqda yazıb.

***

Oktyabrın 5-i səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunlarının Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub.

Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə məruz qalıb.

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri raket zərbələri ilə atəşə tutulub.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin 63-cü tank taborunun daha 3 ədəd tankının məhv edilməsi barədə məlumat yayıb. Azərbaycan Ordusu tərəfindən Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2 ədəd, 41-ci artilleriya alayının 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb. Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilən D-20 artilleriya qurğuları və onların heyətləri də Azərbaycan Ordusunun sərrast atəşi ilə məhv edilib.

*V.BAYRAMOV, "Xalq qəzeti"*